# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının muxtar respublika daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 fevral tarixli 46 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 fevral tarixli 37 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 258 nömrəli Qərarına müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının muxtar respublika daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 fevral tarixli 46 nömrəli Qərarının 1-ci hissəsində “mayın 1-dək” sözləri “sentyabrın 1-dək” sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “21” sentyabr 2021-ci il

№ 199